*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №1* *ISSN: 2664-5432*
*Səhifə: 174-179*
*http://doi.org/10.59849/2664-5432.2024.1.174*

**Lalə QURBANOVA***

# DANIŞIQ AKTI PRAQMATİKANIN ƏSASI KİMİ

**XÜLASƏ**

Danışıq aktı praqmatikanın əsasını təşkil edir. Dilçilik nəzəriyyəsində praqmatika mühüm yer tutur və bu sahə nitqin mənasını kontekstdə öyrənirlər. Praqmatika nitqin semantikası və sintaksisi ilə bağlıdır, danışıq aktında semantika və intonasiya bir-birinə təsir edir. Burada praqmatika danışanla dinləyən arasındakı kommunikasiyada kommunikantların bir-birinə münasibəti və hər iki tərəfin koqnitiv qabiliyyətindən və onların sosial-mədəni səviyyəsindən asılı olduğu qeyd edilir. Məqalədə pressuppozisiya, deyksis, referens və inreferens praqmatikanın əsası kimi qeyd edilir. Nəticə olaraq burada qeyd edilir ki, söyləm danışan və dinləyici tələb edir və burda danışanın dinləyiciyə müəyyən üslubda təsir etmək niyyətini də özündə birləşdirir. Bu prosesdə danışanın nitq fəaliyyəti verbal olaraq yalnız başqalarına deyil, həm də danışanın özünə təsir edir. Beləliklə, praqmatika danışanla dinləyən arasındakı nitqin niyyətini üzə çıxardır.

**Açar sözlər:** *praqmatika, intonasiya, referens, inreferens, kommunikasiya aktı.*

Dil vasitələri praqmatik informasiyanın potensial daşıyıcıları kimi çıxış edirlər. İstənilən bir dili bilmək və dildə danışmaq üçün bir-bir ilə bağlı aşağıdakı dil strukturu mövcuddur: fonologıya-leksikologiya-morfologiya-sintaxsis-semantika-mətn-diskurs-semiotika-praqmatika.

Ç. Morris praqmatikanı semiotikanın bir hissəsi kimi qeyd edir və bu sahə keçən əsrin 30-40-cı illərindən bəri tədqiq edilməyə başlamışdır. 60-70-ci illərdən isə J.Ostin, J.Syörl, P.Qrays, C.Pirsin əsərlərində praqmatika məsələsi geniş tədqiq edilmişdir. Azərbaycan dilçiliyində son 20 ildə praqmatika dilçilərin tədqiqatının aktual mövzusuna çevrilmişdir. Praqmatika mövzusu son illərdə Azərbaycan dilçiliyində ilk olaraq F.Veysəllinin əsərlərində yer almışdır.

Dildə fonemdən mətnə qədər olan bütün dil vahidlərinin yaranmasında və nitqin baş tutmasında bu dil vasitələri zəncir kimi bir-birinə bağlanır. Kommunikasiyanın yaranmasında bu bu vasitələrin ayrı-ayrılıqda rolu vardı. Bu vasitələr təfəkkür və dil birliyindən keçərək nitqin yaranmasını həyata keçirir.

Cəmiyyətdə danışanla dinləyən arasında söyləmin mənasının açılması və dərk edilməsi kommunikasiya prosesinin vacib şərtlərdən biridir. Nitqin semantikası, qrammatik strukturu və intonasiyası konteksdən asılı olaraq dəyişir. İntonasiya

* AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu Hind-Avropa dilləri şöbəsi, fil.ü.d., dos., baş elmi işçi.
Email: lala.qedirova@mail.ru

dildə mənafərqləndirici vasitə kimi praqmatik funksiyanı yeriinə yetirir, ünsiyyət prosesində adresata təsir edərək danışanın niyyətiniüzə çıxarır.

F. de Sössür deyir ki, "*Dil işarəsi əşya ilə adı deyil, anlayışla akustik obrazı birləşdirir*" [Sössür: 2003, s.114].

Q.Freqe "*Anlamlar danışıq zamanı yaranır, belə ki,insan öz həmsöhbəti ilə ünsiyyətə girərkən həmişə anlamdan istifadə edir*" fikrini qeyd edir və o, mənanı predmet, əşya və hadisə adlandırır [Frege, Begriff: 2008, s.25].

Dilin ən kiçik vahidi fonemdirsə bu fonemlərdən dilin əsasını təşkil edən sözlər yaranır, sözlər müəyyən nizam və qaydalarla düzülərək müxtəlif dil vahidləri yaranır və bu sözlər və sözdən yaranan dil vahidləri cümlə düzəldərək nitq üçün bir model təşkil edir. Bundan sonra insanlar arasında cümlələrdən ibarət mətn və diskursun yaranması baş verir. Bu cür mətn və diskursun yaranması zamanı dil işarələri vasitəsilə danışanla dinləyənin bir-birinə verdikləri məlumatın mənası və ya məğzi əvvəldən sona qədər mental prosesdən keçir.

Əgər söhbət iki insan arasında nitq münasibətindən gedirsə bu nitqi praqmatik olaraq təhli etmək lazımdır. Dilçilikdə danışanla dinləyən arasındakı söyləmin mənasını öyrənən sahə praqmatikadır. Praqmatika adresant və adresatın qarşılıqlı münasibətləri ilə bağlı danışıq etiketləri özündə birləşdirir. Müasir dilçilikdə praqmatika kommunikantların ünsiyyət fəaliyyətinin qarşılıqlı əlaqəsi kimi tədqiq edilir.

F. Veysəlli "Praqmatika danışılana dinləyənin ünsiyyətə necə varid olmasını, deyilənin başa düşüb qavramasını və ünsiyyətin uğurlu alınmasını tədqiq edir, digər tərəfdən də praqmatika ünsiyyətin baş tutması qaydalarını öyrəndiyini qeyd edir və o, dilçiliyin bu sahəsini dilin işlənməsi qaydalarını öyrənən elm sahəsi kimi göstərir [Veysəlli: 2013, s.303].

Praqmatikanı dildə söyləmlərin funksiyasının və bununla ifadə olunan propozisiyaları onların spesifik məqamda işlənməsindən asılı olduğunu qeyd edən F.Veysəlli deyir ki, "deyksis probleminin praqmatikaya və ya semantikaya aidliyini müəyyənləşdirmək nisbətən çətindir. Söyləmlərin kontekstlərdə şəraitlə bağlılığı vasitələri kimi praqmatikaya aiddirlər, ancaq onlar cümlələrin gerçəklik şərtləri kimi müəyyənləşməsi faktorları olaraq semantikaya aiddirlər" [Veysəlli: 2013, s.303].

Kommunikasiya zamanı nitq fəaliyyətinin qarşılıqlı əlaqə mexanizminin əsas keyfiyyəti onun sadəcə aktların yerdəyişmə ardıcıllığı kimi çıxış etməməsidir. Bu zaman kim danışır, nə danışır, nə zaman danışır, hansı şərtlər daxilində danışır kimi məsələləri nəzərə aldığı üçün praqmatika mənanın kontekstə öyrənir. Nitqdə praqmatikanın əsas vasitələri danışıq aktı, deyksis, presuppozisiya, referens və inreferens durur ki, Azərbaycan dilçiliyində presuppozisiya məsələsini ilk dəfə olaraq F.Veysəlli izah etmişdir və o, presuppozisiya məsələsinə praqmatik aspektdən də yanaşaraq qeyd edir ki, "presuppozisiya danışanın öz fikrini ifadə etmək üçün əsaslandığı dilxarici faktordur. Bu fenomeni araşdırmadan praqmatika

ilə semantika arasındakı mürəkkəb əlaqələri başa düşmək çətindir" [Veysəlli: 2007, s.272].

Presuppozisiya söyləm və cümlələrə deyil, danışan və dinləyənə aiddir və buda danışanın məsələnin əvvəlindən xəbəri olması onun dinləyənə doğru məlumat verməsinə kömək edir, yəni söhbətin məğzi nədən ibarətdir onu anlatmağa çalışır. Buda danışanla dinləyən arasında məntiqli dialoq alınmasına gətirib çıxarır. Referens niyyətin eyniləşdirilməsinə əsaslanır, yəni danışan dinləyənə nəyisə dil vasitəsi ilə çatdırır, inreferens isə söyləm zamanı işarə etdiyimiz obyektləri ifadə edir.

Danışıq aktı praqmatik sistemə daxildir. Danışıq aktında adresant və adresat iştirak edir və kommunikantlar ümumi danışıq qabiliyyətinə, biliklərə və dünya haqda təsəvvürlərə malik olur ki, bu zaman mətn yaranır.

*"Danışıq aktları ətraf aləmin mənzərəsini təsvir edir...hadisə barədə məlumat verir, hadisələrin fərqli tərəfləri üçün şərait yaradır, təklif edir, təşəkkür bildirir, lənətləyir, salamlayır, tərifləyir və s."* [Wittgenstein, Russell: 1961, s.23].

H.P.Qrays danışıq aktında ünsiyyətən danışır ünsiyyətin insanlar *tərəfindən çoxlu sayda niyyətlər və inanclar vasitəsi ilə bir-birini başa düşüdüklərini*" *qeyd edir* [Grice: 1989, s.260].

C.Ostin *dil fəlsəfəsi daxilində təşəkkül tapan danışıq aktı nəzəriyyəsini qeyd edərək və dildən necə istifadə etməyin üsullarını izah etmişdir*" [Austin: 1962, s.97]. Digər tərəfdən C.R.Syörl danışıq aktının quruluşunu izah etmişdir [Searle: 1992, s.535] və o, danışıq aktı nəzəriyyəsini inkişaf etdirərək lokutiv, illokutiv və perlokutiv olaraq üç bölməni vermişdir [Searle: 1976, s.36].

Dil vahidləri informasiya mübadiləsi vasitəsi olmaqla bərabər, həm də dinləyiciyə təsir vasitəsidir və onun əsas məqsəd insanlar arasında bir-birinə informasiya ötürməkdir. Ancaq, yaranan hər bir kommunikasiya aktı təkcə informasiyanın dinləyiciyə ötürməklə tamamlanmır, çünki kommunikasiyanın yaranması danışanın müəyyən praqmatik effekti yaratmaq zərurəti ilə şərtlənmişdir.

Deməli, dilin istifadəsini daha geniş şəkildə öyrənmə imkanına malik praqmatika mürəkkəb bir sistemə malikdir. Paraqmatika təkcə deyilən sözü deyil, həm də sözün altında yatan mənanı öyənən bir sahədir. Digər bir tərəfdən praqmatika semiotikanın bir hissəsidir və semiotika dil işarələrindən, praqmatika isə ünsiyyət zamanı danışanla dinləyənin arasında bu işarələrdən istifadə edərək münasibətin qurulmasından bəhs edir. Praqmatikanın əsasında işarə - danışanla dinləyənin bir-birinə münasibəti, söyləmin konteksdən asılı olan mənası durur.

Danışanla dinləyən arasındakı dialoqun alınması hər iki tərəfin koqnitiv qabiliyyətindən və onların sosial-mədəni səviyyəsindən asılıdır. Kommunikasiya zamanı deyənin dinləyənə təsir etmək istiqamətində onun davranış mexanizminin təsviri və şərhi praqmalinqvistikanın vacib problemlərindən biridir. Burada insan danışıq fəaliyyətinin subyekti kimi hər zaman ön mövqedə durur. Praqmalinqvistikanın əsasını ünsiyyət zamanı iştirakçıların bir-birinə qarşılıqlı təsirinin

öyrənilməsi təşkil edir. Başqa sözlə desək, danışıq sözlü məlumatların ötürülməsi prosesi olsa da, lakin bu onun heç də son məqsədi kimi dəyərləndirilməməlidir.

Beləki, praqmatikadan danışarkən koqnitiv-praqmatikaya xüsusi diqqət yetirmək lazımdır.

F.Y.Veysəlli dil ünsiyyət vasitəsi kimi qeyd edərək, onun insan tərəfindən reallaşdığını və kodlaşdığını izah edir, digər tərəfdən də dili insan tərəfindən qəbul edildiyini deyir və dil və təfəkkürün birgə fəaliyyət ğstərdiyini qeyd edən müəllif və bunların birliyi insanın ruhuna təsir etdiyini yazır [Veysəlli: 2013, s.9].

Qarşılıqlı ünsiyyətdə praqmatika semantika və sintaksislə bağlıdır. Ünsiyyət prosesində danışanlar bir-birinə verbal və qeyri-verbal olaraq qarşılıqlı təsir edir. Peccei J.S. qeyd edir: “Semantika və praqmatika dilçiliyin əsas sahələrindəndir, semantika kök mənanın üzərində dayanır, yəni ifadələri linqvistik baxımdan öyrənirsə praqmatik isə mənanı linqvistik tərəfi ilə yanaşı onun kontekstdəki aspektlərinə diqqət yetirir və sosialial aləmin dil biliyini nəzərə alır” [Peccei: 2002, s.3]. O, qeyd edilçilikdə cümlə və söyləm arasında fərqlər vardır və praqmatika cümlələri deyil söyləmin kontekstə olan mənasını öyrənir” [Peccei: 2002, s.6].

Buna görə də danışıq fəaliyyətində kollektiv-tənzimləyici və özünütənzimləyici funksiyaların mövcudluğunu vurğulamaq mümkündür. İstənilən kommunikasiya aktında müəyyən nəticə, yəni təsir vardır. İstənilən verbal ünsiyyətdə kommunikantlar son nəticədə həmsöhbətinin fəaliyyətini tənzimləyən dilxarici məqsədlər güdürlər mühakiməsi danışıq aktı nəzəriyyəsinin ilkin nöqtəsi kimi qeyd edilir.

Söyləmin formalaşmasında əsas motiv və niyyətin olmasıdır, bundan sonra bu proses daxili nitq mərhələsinə keçir ki, buda dərin qatın sintaktik strukturun formalaşmasına gətirib çıxarır və sonda üst qat semantik strukturlara əsaslanan söyləmlərdə reallaşır.

N.Xomskinin konsepsiyasına görə, dilə yiyələnmə ayrı-ayrı dil elementləri vasitəsilə deyil, mənalı söyləmləri formalaşdıran qaydaların mənimsənilməsi sayəsində baş tutur [Chomsky: 1969, s.]. Sintaktik strukturlar özlüyündə söyləmin mənasının açılması üçün yetərli hesab edilə bilməz və bundan ötrü söyləmin təşkilinin digər tərəfinə - intonasiyaya nəzər yetirmək lazımdır. İntonasiya söyləmi təkcə formalaşdırmır, o həm də onun məna və emosional-ekspressiv məzmununu üzə çıxarır, dinləyicitə estetik təsir göstərir.

İki insan arasında dialoqun alınması və kommunikasiyanın qurulması üçün doğru ifadələr seçilməsi vacibdir. Çünki, danışan fikrini sözlə dinləynə işarə edərək ona təsir edir və söz söyləmdə anlam işarəsidir. Digər bir tərəfdən intonasiya bütövlükdə kommunikasiyaya yönəlikli mürəkkəb dil hadisəsi kimi söyləmdə fikir bitkinliyini, aktual üzvlənməni və ekspressiv subyektiv-modal səciyyəsini formalaşdırır. İntonasiya söyləmin geniş diapazonlu praqmatik yükünü ifadə etəməklə yanaşı, verbal ifadə vasitələrinin tamamlaya, dəqiqləşdirə, əvəzləyə və ya ziddiyyət yarada bilər. İntonasiyanın mənafərqləndirici funksiyası özünü intonem səviyyəsində göstərir və intonasiya cümlənin strukturu ilə birbaşa deyil, söyləm və

onun mənası ilə bağlıdır İntonasiyanın praqmatik funksiyası dedikdə burada dil vasitələrinin köməyilə danışanın kommunikativ niyyətinin konkret olaraq sosiolinqvistik kontekstə uyğun olaraq reallaşması nəzərdə tutulur.

Praqmatika kommunikasiya zamanı dilin düşünülmüş praktik mənimsənilməsinə xidmət edir. Praqmatika müasir dilçilikdə kommunikasiya aktı-danışan və dinləyənin bir-birinə qarşılıqlı təsir prosesi kimi təhlil olunur. Ümumiyyətlə, söyləm danışan və dinləyici tələb edir və burda danışanın dinləyiciyə müəyyən üslubda təsir etmək niyyətini də özündə birləşdirir. Bu prosesdə danışan nitq fəaliyyəti zamanı verbal olaraq yalnız dinləyənə deyil, həm də danışan özünə təsir edir. Söyləmdə intonasiya məna ilə müəyyənləşir və onda müşahidə edilən dəyişmələr söyləmin mənasını, daha dəqiqi desək danşanın söyləmdəki niyyəti ilə şərtlənir.

**ƏDƏBİYYAT**


1. Sössür F. de Ümumi dilçilik kursu. Bakı: BDU nəşriyyatı, 2003,408 s.
2. Veysəlli F. Dilçiliyin əsasları/ Bakı, 2013. 417 s.
3. Veysəlli F. Dil / F.Y. Veysəlli. Bakı: Təhsil NPM, 2007. 291 s.
4. Austin, J. L. How to do things with words /J.L.AustinJ.O. Urmson (ed.). Oxford: Oxford University Press, 1962. 166 p.
5. Chomsky N. Language and the Mind /Published in the United States of America by Cambridge University Press, New York, 1969, 209 p.
6. Frege Q.F. Logical Studies /Q.F.Frege, B.Begriff. Berlin: Gottingen, 2008. pp. 34 – 60.
7. Grice H.P. Studies in the Way of Words /H.P.Grice. Cambridge, MA: Harward University Press, 1989, 394 p.
8. Peccei J.S. Praqmatics /2002, By Routledge, 112 s.
9. Searle J.R. Speech acts: An essay in the philosophy of language/J. R. Searle. Cambridge: Cambridge University Press, 1976. 203 p.
10. Searle J.R. The Rediscovery of the Mind/J.R.Searle. Cambridge, MA and London: MIT Press, 1992. 286 p.
11. Wittgenstein L., Russell B. Tractatus Logico Philosophicus. The German Text of Ludwig Wittgenstein's Logisch philosophische Abhandlung/L.Wittgenstein. London: Routledge and Kegan Paul, (original text published 1921), 1961. 367 p.


## SPEECH ACT AS THE BASIS OF PRAGMATICS

**SUMMARY**


The article is deals with the pragmatics in the communication act. Pragmatics an important place in linguistic theory. Pragmatics learn the meaning of the speech in the context. In this paper is noted that, special role of the language signs which is opening the meaning of the thought. Pragmatics is connected with semantics and syntactic of speech. Pragmatics and intonation are influence each other in the context. The activity of intonation and its components means in the realization of speaker sintensiation under the title of pragmatics function of intonation. Here also the author brings to light a role of stress which reveals the pragmatics of the discourse. The main part of pragmatics have been considered in the article from dif-

ferent aspects. Presupposition, deixis, reference and inreference an important part of pragmatics and have been investigated in the article. In the article is given a scrupulous analysis of some texts. All items of the article are affirmed by means of a rich scientific-theoretical material reflecting many achievements of scientists-linguists.

***Key words:*** *pragmatics, intonation, reference, inreference, communicative act.*

## РЕЧНОЙ АКТ КАК ОСНОВА ПРАГМАТИКИ

### РЕЗЮМЕ

В статье рассматривается прагматика коммуникативного акта. Прагматика занимает важное место в лингвистической теории. Прагматики изучают смысл речи в контексте. В данной статье отмечается особая роль языковых знаков, раскрывающих смысл мысли. Прагматика связана с семантикой и синтаксисом речи. В данной статье отмечается особая роль интонации, раскрывающей смысл речи. Прагматика и интонация влияют друг на друга в контексте. Активность интонации и ее компоненты подразумевают реализацию синтенсии говорящего под названием прагматической функции интонации. Основная часть прагматики рассмотрена в статье с разных сторон. Пресуппозиция, дейксис, референция и инреференция являются важной частью прагматики и исследуются в статье. В статье дан скрупулезный анализ некоторых текстов. Все положения статьи подтверждены богатым научно-теоретическим материалом, отражающим многие достижения ученых-лингвистов.

***Ключевые слова:*** *прагматика, интонация, референция, инреференция, коммуникативный акт.*